# Bayram kimi nəğmələr

**Böyük sevgi və coşqu ilə qarşıladığımız Novruz bayramı illər, əsrlər boyu Azərbaycan xalqının milli düşüncəsində və yaddaşında dərin izlər qoyub. Bu izlər zaman-zaman musiqiyə, rəssamlığa, xalçaçılığa və başqa sənət nümunələrinə hopub.**



Hamımız üçün müqəddəs olan bu əziz bayramda insanlar sevinclərini müxtəlif adət və ənənələrlə, ayinlərlə ifadə edirlər. Novruz münasibətilə keçirilən şənliklərdə bir-birindən gözəl musiqilər səsləndirilir, bayramın gəlişinə sevinən insanlar musiqi sədaları altında rəqs edib şənlənir, kədər və qəmlərini unudurlar.

İllərdən, əsrlərdən bəridir ki, xalq arasında Novruzla bağlı çoxlu bayatılar, mahnılar və rəqs havaları geniş yayılmışdır. Bunlar təkcə Novruz günlərində deyil, elə ilboyu da ürəklərdə, qəlblərdə dolaşır. Keçirilən böyük el şənliklərində aşıqlar, xanəndələr, xalq musiqisi ifaçıları, adi insanlar Novruz bayramına həsr olunmuş mahnılar ifa edirlər, oynayıb şənlənirlər. Novruzun gəlişini beləcə böyük sevinclə qarşılayırlar.

Görkəmli bəstəkarlarımız da Novruz bayramına həsr olunmuş bir-birindən gözəl musiqilər bəstələyiblər. Dinləyənlərin zövqünü oxşayan bu əsərlərdə Novruz ruhu, ovqatı hiss olunur. Bu musiqilər bayramı daha da təravətləndirir, xalqımıza sevinc bəxş edir. Belə musiqilər keçirilən şənliklərə böyük rəng qatır.

Azərbaycan peşəkar musiqisinin banisi Üzeyir bəy Hacıbəylinin ötən əsrin əvvəllərində bəstələdiyi "Bahar nəğməsi" əsəri Novruz günləri daha sevgi ilə dinlənilir. Bəstəkar Məmməd Quliyev isə "Aldanmış ulduzlar" operasına Novruz bayramı ilə bağlı zurna və nağaranın da iştirakı ilə xalq səhnələri daxil edib. Göründüyü kimi, Novruz bayramına həsr olunmuş musiqilər təkcə el şənliklərinə deyil, operalarımıza da ayaq açıb və böyük sevgi ilə dinlənilib.

Bu mövzuların sırasında Vasif Adıgözəlovun dördhissəli "Novruzum" kantatası da xüsusi olaraq qeyd edilməlidir. "Azərbaycan", "Səməni", "Kosa", "Novruzum" hissələrindən ibarət əsər solist, xor və simfonik orkestr üçün yazılıb.

Bəstəkar Elnarə Dadaşovanın kamera orkestri və soprano üçün yazdığı "İlk bahar" əsəri də maraqla dinlənən musiqi nümunələrindən biridir. Elnarə xanımın görkəmli şairimiz Abdulla Şaiqin sözlərinə yazdığı "Uşaq albomu" mahnı silsiləsində də bir-birindən məlahətli Novruz nəğmələri zövqləri oxşayır. Novruzu tərənnüm edən bu nəğmələr əziz bayramı xalqımıza daha da sevdirir. E.Dadaşovanın kamera orkestri üçün bəstələdiyi "Bahar şərqisi" də xalqımızın yaddaşında, mənəvi dünyasında dərin iz salmış el bayramına həsr olunub.

Mahnılarını sevə-sevə dinlədiyimiz Oqtay Kazımi müxtəlif illərdə Novruz bayramı ilə bağlı "Böyük bayram", "Bayramınız mübarək", "Bayram olsun", "Bahar çağı", "Bahar təranəsi", "Bakının baharı" adlı silsilə mahnılar bəstələyib. Novruzu tərənnüm edən həmin mahnılar bu gün də repertuardan düşmür.

Novruz bayramına həsr olunmuş elə musiqilər, elə mahnılar var ki, uşaqdan tutmuş böyüyə qədər hamının dilinin əzbəridir. Sözləri Teymur Elçinə, musiqisi görkəmli bəstəkar Fikrət Əmirova məxsus "Gülür ellər" mahnısı uzun illərdir dillərdən düşmür, ürəklərdə, qəlblərdə yaşayır. Həmçinin sözlərini bütün zamanlarda sevilən şair Fikrət Qocanın yazdığı və Ramiz Mirişlinin bəstələdiyi "Bayram axşamlarında" mahnısı da illərdir ki, sevilə-sevilə dinlənilir. Cavanşir Quliyevin tanınmış şair Ramiz Rövşənin sözlərinə bəstələdiyi "Novruz gəlir, yaz gəlir" mahnısı da bayrama həsr olunmuş ən populyar və böyük sevgi ilə dinlənilən mahnılardandır.

Görkəmli musiqi tədqiqatçıları Şərq xalqlarının klassik muğam sənətində "Novruz-bayatı", "Novruz-büzürg", "Novruz-kiçik", "Novruz-səba", "Novruz-xara" adlı muğam şöbələrinin olduğunu qeyd edirlər. Bu nümunələrdən biri kimi ölməz sənətkarımız Bülbülün ifasında "Bağçada güllər" mahnısı bütün zamanlarda sevilə-sevilə dinlənilir. Daim sevilən xanəndələrdən olan Yaqub Məmmədovun şaqraq səsində ruhumuzu dilləndirən "Gül açılanda yaz olur", Səxavət Məmmədovun ifasında "Gül açdı, bahar oldu" mahnıları da unudulmaz nəğmələr sırasındadır.

Novruzun gəlişinin, baharın ılıq nəfəsinin duyulduğu ölməz əsərlər sırasında Tofiq Quliyevin bəstələdiyi və Şövkət Ələkbərovanın ifasında əbədilik qazanmış "İlk bahar", Cahangir Cahangirovun "Bahar nəğməsi" mahnılarında xalqımızın Novruz sevinci xüsusi şövqlə ifadə olunur. Ramiz Mirişlinin "Bayram axşamlarında" mahnısı isə hamımızın zümzümə etdiyi musiqilərdən biridir.

Novruz bayramını tərənnüm edən və insanlara sevdirən mahnıların sırasında görkəmli bəstəkarlar Ağabacı Rzayevanın, Hökumə Nəcəfovanın, Oqtay Zülfüqarovun, Tofiq Əhmədovun, Bəxtiyar Kərimovun da bəstələdiyi əsərlər çoxdur. Bəstəkar Mehriban Əhmədovanın Fikrət Qocanın sözlərinə yazdığı "Bahar nəğməsi" mahnısını böyük sevgi ilə dinləməyən varmı?! Təbii ki, yoxdur. Çünki bu musiqilər qəlbimizə, ürəyimizə bulaq suyu kimi axır.

Novruz bayramının tərənnümü təkcə peşəkar bəstəkarların deyil, həvəskar musiqiçilərin və müğənnilərin də yaradıcılığında mühüm yer tutur. Yaradıcısı və ifaçısı mərhum Məmmədbağır Bağırzadə olan və hamımızı Novruz ovqatına kökləyən "Bahar gəlir", "Bayram şamları", "Yurdumuza yaz gəlir" mahnılarını bu gün də sevə-sevə dinləyirik.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 19 mart (№ 60).- S.15